# "ANR Audit" Məhdud Məsuliyyətli Cəmiyyəti

Azərbaycan Respublikası, Bakı şəhəri,
AZ1096, Q.Qarayev pros.84, mən.38
VÖEN: 1900137052
Audit Lisenziyası № AT 113

84, Q.Qarayev Str, app. 38
AZ1096, Baku, Azerbaijan
Tax ID No: 1900137052
Audit License No: AT 113

Tel : (+99412) 4220760
(+99450) 2236075
E-mail: anraudit@office.az


## MÜSTƏQİL AUDİTORUN RƏYİ

**«TCF» Bank Olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarına**

1. Biz «TCF» BOKT Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2014-cü il tarixinə təqdim edilən maliyyə vəziyyətinə dair hesabat, həmin tarixdə tamamlanan il üzrə məcmu gəlirlərə dair hesabat, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından, eləcə də əsas uçot prinsiplərinin xülasəsindən və digər izahedici qeydlərdən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

*Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti*

2. Hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar daxildir: fırıldaqçılıq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı; maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminin yaradılması, tətbiq edilməsi və davam etdirilməsi; müvafiq uçot siyasətinin seçilməsi və tətbiq edilməsi; şəraitdən asılı olaraq məqbul uçot təxminlərinin irəli sürülməsi.

*Auditorun məsuliyyəti*

3. Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında apardıq. Həmin Standartların tələblərinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.
4. Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizələrindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.
5. Hesab edirik ki, əldə etdiyimiz auditor sübutları rəy bildirmək üçün kifayət qədər əsas verir.

*Rəy*

6. Bizim fikrimizcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2014-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**"ANR Audit" MMC-nin direktor-auditoru** — **Abbaslı Namiq Rasim oğlu**
**Bakı, Azərbaycan Respublikası**
**12 mart 2015-ci il**

**"TCF" BOKT Açıq Səhmdar Cəmiyyəti**

**MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT (BALANS HESABATI)**

***31 dekabr 2014-cü il tarixinə*** *Azərbaycan Manatı ilə*

| | Qeyd | 31 dekabr 2014-cü il | 31 dekabr 2013-cü il |
|---|---|---|---|
| AKTİVLƏR | | | |
| Əsas vəsaitlər | 7 | - | |
| Qeyri-maddi aktivlər | 8 | - | |
| Uzunmüddətli maliyyə aktivləri | 9 | - | |
| Müştərilərə verilmiş kreditlər | 10 | 4 962 903 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 61 768 | |
| Banklarda yerləşdirilmiş depozitlər | 13 | - | |
| Digər aktivlər | 11 | 168 028 | |
| **CƏMİ AKTİVLƏR** | | **5 192 699** | |
| KAPİTAL | | | |
| Səhmdar (nizamnamə) kapitalı | 17 | 300 000 | |
| Kapital ehtiyatları | 18 | (76 223) | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | | |
| **CƏMİ KAPİTAL** | | **223 777** | |
| ÖHDƏLİKLƏR | | | |
| Maliyyə sektoru qarşısında öhdəliklər | 14 | 4 967 922 | |
| Cari mənfəət vergisi üzrə öhdəliklər | 15 | - | |
| Digər öhdəliklər | 16 | 1 000 | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **4 968 922** | |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **5 192 699** | |

Elşad Münsif
*İdarə Heyətinin sədri*

12 mart 2015-ci il

Aybəniz Balakişiyeva
*Baş mühasib*

12 mart 2015-ci il

«TCF» BOKT Açıq Səhmdar Cəmiyyəti

**MƏCMU GƏLİRLƏRƏ DAİR HESABAT (MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI)**

*31 dekabr 2014-cü il tarixinə* *Azərbaycan Manatı ilə*

| | Qeyd | 2014 | 2013 |
|---|---|---|---|
| Faiz gəlirləri | 19 | 111 831 | |
| Faiz xərcləri | 20 | (45 922) | |
| **Xalis faiz gəlirləri** | | **65 909** | |
| Digər əməliyyat gəlirləri | 21 | 122 093 | |
| Digər əməliyyat xərcləri | 22 | (264 225) | |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **(76 223)** | |
| Mənfəət vergisi xərci | 23 | - | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **(76 223)** | |
| **Mənfəətdə iştirak payı:** | | | |
| Təsisçilərin payı | | - | |

Elşad Münsif
*İdarə Heyətinin sədri*

12 mart 2015-ci il

Aybəniz Balakişiyeva
*Baş mühasib*

12 mart 2015-ci il

**"TCF" BOKT Açıq Səhmdar Cəmiyyəti**

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI

*31 dekabr 2014-cü il tarixinə*

*Azərbaycan Manatı ilə*

| | Qeyd | 2014-cü il | 2013-cü il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə mənfəət /zərər | | (76 223) | |
| Mənfəət vergisi üzrə xərclər | 23 | - | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| • Əsas vəsaitlərin amortizasiyası | 7 | - | |
| • Qeyri-maddi aktivlərin amortizasiyası | 8 | - | |
| • Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər/zərərlər | 7 | - | |
| Dövriyyə kapitalında dəyişikliklər: | | | |
| • Müştərilərə verilmiş kreditlər artım/azalma | 10 | (4 962 903) | |
| • Digər aktivlərdə artım/azalma | 11 | (168 028) | |
| • Cari mənfəət vergisi üzrə öhdəliklər | 15 | - | |
| • Digər öhdəliklər üzrə artım/azalma | 16 | 1 000 | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(5 206 154)** | |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Qiymətli kağızların əldə edilməsi | 9 | - | |
| Banklarda yerləşdirilmiş depozitlər | 13 | - | |
| Əsas vəsaitlərin alınması | 7 | - | |
| QMA alınması və digər kapital qoyuluşları | 8 | - | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **-** | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşu | | 300 000 | |
| Alınmış kreditlər | 14 | 4 967 922 | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | | **5 267 922** | |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | | **61 768** | |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | | **-** | |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | | **61 768** | |
| **İl ərzində artım (azalma)** | | **61 768** | |

Elşad Münsif
*İdarə Heyətinin sədri*
12 mart 2015-ci il

Aybəniz Balakişiyeva
*Baş mühasib*
12 mart 2015-ci il

## «TCF» BOKT Açıq Səhmdar Cəmiyyəti
## KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI

*31 dekabr 2014-cü il tarixinə* *Azərbaycan Manatı ilə*

| | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2012-ci il tarixə qalıq** | | - | - | - | - |
| 2013-cü il üzrə xalis mənfəət | | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| **31 dekabr 2013-cü il tarixə qalıq** | | - | - | - | - |
| 2014-cü il üzrə xalis mənfəət | | - | - | (76 223) | (76 223) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | 300 000 | - | - | 300 000 |
| Elan edilmiş dividendlər | | - | - | - | - |
| **31 dekabr 2014-cü il tarixə qalıq** | | **300 000** | - | **(76 223)** | **223 777** |

Elşad Münsif
*İdarə Heyətinin sədri*

12 mart 2015-ci il

TCF

Aybəniz Balakişiyeva
*Baş mühasib*

12 mart 2015-ci il